# Ana dilimizi qorumaq hər bir soydaşımızın ümdə vəzifəsidir

*Dil hər bir xalqın varlığının əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ana dili dövlət rəmzlərimizdən olan himn, gerb, bayraq kimi müqəddəsdir.*

Müstəqilliyini bərpa etdikdən sonra dövlətin əsas strategiyası Azərbaycan dilinin qorunması və Azərbaycan əlifbasının tətbiqi idi. Yeni əlifbanın tətbiqi müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş vermiş mühüm hadisələrdən biri oldu. Xüsusən ana dilimizin Azərbaycan dili adlandırılması ilə müstəqilliyimizi dünyaya bir daha nümayiş etdirmiş olduq. Məlumdur ki, 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirilmişdir. Müstəqilliyimizin bərpasından sonra yaranmış tarixi şərait ana dilimizin dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu mənada, Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında ulu öndər Heydər Əliyevin 9 avqust 2001-ci il tarixli 552 saylı Fərmanı tarixi hadisədir. Bu fərmanın verilməsi milli şüurun inkişafı, yeni nəslin dilimizə bağlılığı baxımından mühüm əhəmiyyət kəsb edir. Ana dilimiz ata-babalarımızdan bu günə kimi gəlib çıxan milli sərvətimiz, milli-mənəvi dəyərimizdir. Bu baxımdan, ulu öndər Heydər Əliyevin Azərbaycan dili haqqında fikirlərini xatırlatmaq yerinə düşər: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və zənginləşibdir. Azərbaycan ədəbi dilinin saflığına daim qayğı göstərilməlidir. Çünki dil xalqın sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir". Məhz buna görə də, ulu öndər Azərbaycan dilinin qorunması məsələsinə hər zaman diqqət göstərmişdi.

Prezident İlham Əliyev tərəfindən 2004-cü il yanvarın 12-də imzalanmış "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncama əsasən hər il latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanır. Həmin il yanvarın 14-də "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il dekabrın 30-da "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlarla ana dilinin həyatımızın bütün sahələrində müfəssəl tətbiqi gerçəkləşdi. Bu sənədlərin imzalanmasından sonra Azərbaycan dilində ədəbi əsərlər, nəşrlər daha da artdı. Prezident İlham Əliyev "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir", deyərkən Azərbaycan dilinin bu baxımdan əhəmiyyətini xüsusi olaraq vurğulayır. Artıq yeni nəsil arxivlərdə latın qrafikalı əsərlərdən məlumatlar əldə edir. Bütün bunlar ölkə başçısının Azərbaycan dilinə olan diqqətinin bariz nümunəsidir.

Prezident İlham Əliyev ana dilimizin qorunması və saflaşdırılması məsələsini də daim nəzarətdə saxlayır. Belə ki, dövlətimizin başçısının 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı ölkəmizdə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq edir. Dilimizin saflığının qorunmasında bu fərmanın mühüm rolu var. Bu, cənab Prezidentin dilimizə sevgi və ehtiramından qaynaqlanır. Azərbaycan dilinə verilən dəyər olaraq bu sənəd dilimizin qorunması məsələsinə yenidən və daha ciddi şəkildə diqqət edilməsinin vacibliyini göstərir. Buna görə də, Azərbaycan dilinin normaları hər bir qurum, ümumilikdə isə cəmiyyət tərəfindən qorunmalıdır.

Sevindirici haldır ki, vətəndaş cəmiyyəti milli-mənəvi dəyərlərə, eləcə də dil məsələsinə xüsusi diqqət göstərir. Lakin bütün hallarda dilimizin saflığının qorunmasında fərdi münasibət kifayət etmir. Dilimizin qorunması, təbliğ olunması, zənginləşdirilməsi yaşından, harada yaşamasından, sosial mənsubiyyətindən asılı olmadan cəmiyyətin hər bir nümayəndəsinin ən müqəddəs borcudur. Mədəni irsin təməl sütunlarından olan, insanın milli-mədəni mənsubiyyətini və mənəviyyatını müəyyən edən əsasların ən vacibi olan dil amilinin xaricdə yaşayan azərbaycanlıların və böyüyən gələcək nəslin həyatında böyük əhəmiyyəti var. Ana dilimizi qorumaq hər bir soydaşımızın müqəddəs borcudur.

**Gülzar İBRAHİMOVA,**
**Avrasiya Universitetinin**
**Elmi işlər üzrə prorektoru,**
**siyasi elmlər doktoru.**

Respublika.- 2022- ci il.- 4 avqust.- S. 10.